*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 17 fevral 2018-ci il | № 13 (2229) | Qiymәti 25 qəpik


*Ön xətdən reportaj*

# "Güclü dövlətin vətəndaşı, qüdrətli ordunun əsgəriyik!"



*Qışdı. Ağacların sarılı-qırmızılı yarpaqları seyrəldiyindən ətraf tamam çılpaq görünür. Günəş dağlara, dərələrə, düzlərə işıq salmağa çalışır, ahəstə-ahəstə, fikirli-fikirli... Adama elə gəlir ki, günəşin təbiəti isitməyə gücü çatmır. Soyuqdu. Dağlara burulan yol bozumtul çöldə qapqara iz buraxıb. Axan dağ çayının şırıltısını dinləyənə elə gəlir ki, çay bəndi-bərəni aşıb yolları təmizləməyə çalışır... Gözümüzün önündə əsrarəngiz mənzərə canlanır.*

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Natiq Əhmədovun idarə etdiyi hərbi təyinatlı minik avtomobili əyri, dolanbac, sərt enişli-yoxuşlu yolları arxada qoyur və nəzərdə tutulan posta - düşmənlə təmas xəttinə çatır. Zabit Namiq Soltanov bizi təmas xəttində yaradılan şəraitlə tanış edərək bildirir ki, şəxsi heyətin məişət şəraiti, maddi-texniki təminatı və təchizatı dedikdə ön xətt, ya arxa xətt anlayışları yoxdur.

Zabit söhbət əsnasında onu da bildirir ki, postumuz müəyyən bir yüksəklikdə yerləşsə də, şəxsi heyətimizin təminat və təchizatı istənilən səviyyədədir. "Burada anbar, mətbəx, hamam, sanitar qovşağı və sığınacaq var. Şəxsi heyətimizin istirahətinin səmərəli keçməsi rəhbərliyin diqqət mərkəzindədi."

**(Ardı 3-cü səhifədə)**



Xalq ordunun, ordu xalqın dayağıdır

2-ci səhifədə



Aprel döyüşləri - böyük zəfərin başlanğıcı

4-cü səhifədə



Xalqın inamına güvənirik

5-ci səhifədə



Bu gün fırça mənim üçün bir silahdır

7-ci səhifədə

Ordu və cəmiyyət

# Xalq ordunun, ordu xalqın dayağıdır

Dövlətçilik atributlarından olan ordu cəmiyyətin tərkib hissəsi kimi həmişə sayğıyla əhatələnib. Ordu-ictimaiyyət münasibətinin əsasında dövlətçiliyə sevgi, dövlətə sədaqət dayanır. Xalq ordusuna inanır, ordu xalqa güvənir. Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən, hərbi qulluqçuların, əsasən, əsgərlərin ordunu, minlərlə iştirakçının xalqı təmsil etdiyi hər tədbir şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə istiqamətlənir. Belə tədbirlər ictimaiyyətin iştirakı ilə keçirildiyindən mahiyyət etibarı ilə ordu ilə ictimaiyyətin vəhdəti deməkdir. Bu gün bu vəhdət potensial güc qüdrətindədir. Gənc əsgərlərin hərbi andiçmə mərasimi də belə tədbirlərdəndir.

İştirak etdiyim andiçmə tədbirlərində həmişə düşüncələrimə hopan bir məqamı böyük könül xoşluğuyla yaşamışam. Valideynlərin də, hərbi and içəcək əsgərlərin də tədbirin başlayacağı anın intizarında olduğunun eyniliyini həmişə duymuşam. Ana əsgər oğlunu bağrına basmağın, gənc əsgər içdiyi hərbi andın sevinci içindəykən "Mən əsgərəm, ana!" deməyin təşnəsidi. Hərbi andı içib komandirlərini, hərbi hissənin zabitlərini, valideynlərini necə xidmət edəcəyinə inandıran əsgərin baxışlarından dikələn sevinc, fərəh, qürur aydınlığıyla sezilir, hiss olunur. Çağırışçı nəyi qoruduğunu, Vətəni qorumağın müqəddəs vəzifə, borc olduğunu bilir. Ona hərbi xidmətdə torpaqları əsgər kimi necə qorumağı öyrədirlər. Hərbi and öyrədilənlərin böyük məsuliyyətlə yerinə yetiriləcəyinə zəmanətdir.

Bu günlərdə hərbi hissələrdə gənc əsgərlərin hərbi andiçmə mərasimində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun gənc əsgərlərə ünvanladığı təbrik nazirin əsgərə etimadının, rəğbətinin, inamının təsdiqidir. And içən əsgər bu təbriki hərbi andın mənəvi davamı bilir və bu etimadı da doğruldacağına söz verir. Onların baxışlarından oxunanların sırasında bu qənaət də var. Bu qənaətin dönməzliyi "N" hərbi hissəsində keçirilən andiçmə tədbirində ürəyimi dağa döndərdi. Tədbirdə iştirak edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxışında son illərdə həyata keçirilən irimiqyaslı islahatlardan, islahatların nəticələrindən, bütün qoşun növlərini əhatə edən təlimlərdən, Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığından danışaraq gənc əsgərləri də, onların valideynlərini də bu əlamətdar hadisə münasibətilə təbrik etdi. Müdafiə nazirinin valideynlərlə söhbətləşməsi valideynlərlə, deməli, ictimaiyyətlə belə ünsiyyəti ordu quruculuğunun qeyri-rəsmi də olsa zəruri tərkib hissəsidir. Əsgər atasının dedikləri də bu qənaətin mahiyyətinə söykənib. Bu səmimiyyət, bu etimad müqabilində layiqli vətəndaş kimi böyütdüyümüz oğullarımız, təbii ki, nümunəvi xidmət edəcək" - əsgər atasının dediyi bu kəlmələr ictimaiyyətin orduya sevgisi kimi qəbul edilir.



Andiçmə mərasiminə müxtəlif yaşlılar gəlmişdi. Qoca da, cavan da, yeniyetmə də vardı, uşaq da. Hamı xoş ovqat içindəykən hərbi səhra mundiri geyinmiş 7-8 yaşlı bir uşaq Müdafiə nazirini görüncə dayandı. Və gözlənilmədən onu hərbi qaydada salamladı. Bu məqamın nazirə də, nazir müavininə də, zabitlərə də, valideyinlərə, ictimaiyyətin nümayəndələrinə də böyük könül xoşluğu verdiyini hiss etmək çətin deyildi. Bu yaşda hərbi mundirə sevgi, bu yaşda hərbi xidmətə ehtiram, bu yaşda hərbi rütbələri fərqləndirməyi bacarmaq, bu yaşda Müdafiə nazirini tanımaq, əlbəttə ki, görənlərin ürəyini dağa döndərəcəkdi, görənlər uşağa - Yağmura - həsədlə baxacaqdı. O anlarda Yağmur tədbirə gələn bütün ataların qızıydı, bütün babaların nəvəsiydi. "Sağ ol, ay bala!" - bir baba bu şirin uşağı bağrına basdı. Andiçmə tədbiri Yağmurumuzun timsalında ordu-ictimaiyyət münasibətlərinin qürur göstəricisiydi!...

Müdafiə nazirinin ictimaiyyətin nümayəndələriylə görüşməsi, söhbətləşməsi, sualları cavablandırması bir həqiqətin təntənəsidi: Müdafiə nazirinin timsalında ordu ilə andiçmə tədbirində iştirak edənlərin timsalında ictimaiyyət arasında qarşılıqlı etimad, ehtiram, inam, güvənc var. Bu inam, bu güvənc 2016-cı ilin aprelindən bu yana daha da həssaslaşıb, daha da dönməzləşib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov ictimaiyyətin nümayəndələrinə (deməli, bütövlükdə ictimaiyyətə) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin YAP-ın VI qurultayında dediyi bir fikri də xatırlatdı: "Hərbi sahədə apardığımız siyasət özünü tam doğrultdu". Bu xatırlatmanın qürurunu Müdafiə naziri ictimaiyyətlə birgə yenidən yaşadı. İctimaiyyət bir daha əmin oldu ki, bu proses daha dinamik olacaq.

Ali Baş Komandanın qətiyyətlə dediyi "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır" inamı Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş qabiliyyətinə, gücünə verilən dəyərdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə həll edilməsə, bu qənaət Azərbaycan Ordusunun nəyə qadir olduğunu döyüşdə də təsdiqləyəcək, torpaqlarımız işğaldan azad ediləcək. Digər hərbi hissələrdə olduğu kimi "N" hərbi hissəsində də andiçmə mərasimi bu qənaətin təntənəsi kimi izlənildi, düşüncələr bu dəyərin mahiyyətinə kökləndi.

Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən bir kütləvi vətənpərvərlik tədbirini xatırlayıram. "Xalq ordunun, ordu xalqın dayağı". Andiçmə mərasimində bu həqiqət o qədər ürək genişliyiylə yaşandı ki!..

Ötən il Horadizdə keçirilən eyni mahiyyətli "Qarabağa yaz gələcək!" tədbirində nizamı qaydada düzülmüş əsgərləri, əsgərlərin iti baxışlarını görən iki ağsaqqalın söhbətini xatırlayıram:

- Ordumuz beş-altı il əvvəlki ordu deyil. Yaxın vaxtlarda işğaldan azad edəcəyimiz bütün kəndlərimiz, qəsəbələrimiz, şəhərlərimiz də Horadiz kimi yenidən tikiləcək.

- Ordumuz güclənir, yeniləşir. Aprel döyüşlərində qazandığımız qələbə təsdiqlədi ki, ordumuz torpaqlarımızı işğaldan azad edəcək.

Ali Baş Komandanın ordumuza göstərdiyi diqqət, qayğı, Müdafiə Nazirliyi rəhbərliyinin diqqətinin, qayğısının ordu quruculuğunun tərkib hissəsi kimi şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə yönəltməsi ictimaiyyətin orduya güvəncini artırır - qənaətində israrlıyam. Müdafiə Nazirliyinin rəhbərliyinin ictimaiyyətlə qarşılıqlı etimadı inama söykənən dialoqu ordu-ictimaiyyət münasibətlərində çox əhəmiyyətlidir. Bu andiçmə mərasimində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun valideynlərlə, ictimaiyyətin nümayəndələri ilə səmimi söhbətini tədbirin məntiqi davamı bildim. Andiçmə mərasiminin valideynlərə böyük könül xoşluğu verdiyini duymaq çətin deyildi. Ona da əmin olduq ki, ordu quruculuğunun zəruri tərkib hissəsi olan andiçmə mərasimi ordu ilə ictimaiyyətin eyni amal naminə daha etibarlı səviyyədə birləşdirir...

Andiçmə mərasimi Müdafiə Nazirliyinin rəhbərliyinin timsalında ordunun xalqa arxalandığını bir daha təsdiqlədi. Tədbir Azərbaycan Ordusunda həyata keçirilən irimiqyaslı islahatların nəticələrinin, ordu quruculuğunda qazanılan nailiyyətlərin də təsdiqi oldu. Bu baxımdan andiçmə mərasimi həm ordu quruculuğunda vacib bir hərbi ritual, həm də ordu ilə ictimaiyyət arasında münasibətlərin daha da şəffaflaşmasını təmin edən bir tədbirdir.

Andiçmə mərasimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi bir fikrin işığında izlənildi və valideynləri də, ictimaiyyətin nümayəndələrini də bir daha əmin etdi ki, ordu-ictimaiyyət münasibətləri daha da dərinləşəcək: "Tarixi torpaqlarımıza qayıdış Azərbaycan dövlətinin strateji siyasətidir".

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**



# HHQ-nin hərbi hissəsində təntənəli mərasim keçirilib

Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsinin 26-cı ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından şəxsi heyəti əlamətdar gün münasibəti ilə təbrik edərək onlara xidmətlərində uğurlar arzulayıb.

General-leytenant R.Tahirov təntənəli mərasimdə çıxışında dövlət rəhbərliyinin Azərbaycan Ordusuna, o cümlədən HHQ-nə göstərilən diqqət və qayğısı sayəsində şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, aviabazaların maddi-texniki təminatının gücləndirilməsi, uçuş və texniki heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb.



Daha sonra çıxış edənlər son illər ölkəmizin ordu quruculuğu sahəsində həyata keçirilən islahatları qeyd edərək hərbi pilotlarımızın torpaqlarımız uğrunda gedən döyüşlərdə göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrini xatırlayıblar.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin konsert proqramı ilə sona çatıb.

# Müdafiə Nazirliyi və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə media nümayəndələrinin görüşü

*Fevralın 14-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyi və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə ölkənin aparıcı media nümayəndələrinin Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan Ordusunun 100 illiyi münasibətilə bayram tədbirlərinin kütləvi informasiya vasitələrində geniş işıqlandırılmasının həyata keçirilməsinə həsr olunan görüşü keçirilib.*



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından tədbir iştirakçılarını salamlayan Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında sərəncamından irəli gələn tapşırıqların icrasının təmin edilməsi məqsədilə Müdafiə naziri tərəfindən əmr imzalandığını və tədbirlər planının təsdiq edildiyini diqqətə çatdırıb.

Nazir müavini Ali Baş Komandanın diqqət və qayğısı sayəsində son illər Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi hissə və bölmələrin maddi-texniki təminatının gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan geniş islahatlardan danışıb.

General-leytenant K.Vəliyev bildirib ki, artıq əvvəlki dövrlə müqayisədə orduda əhəmiyyətli yeniliklərin həyata keçirilməsinin nəticəsidir ki, həqiqi hərbi xidməti başa vurmuş xeyli sayda vətəndaşlarımız öz arzuları ilə yenidən müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmaq barədə müraciət edirlər.

Hərbi təhsilin daha da təkmilləşdirilməsi üçün görülən işlərdən danışan nazir müavini bu sahədə ardıcıl dövlət siyasətinin həyata keçirildiyini və Azərbaycanın inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsindən bəhrələndiyini də qeyd edib.

Kütləvi informasiya vasitələri ilə əlaqələrin inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdıran general-leytenant K.Vəliyev ordu quruculuğu məsələlərində obyektivliyin və şəffaflığın təmin edilməsi baxımından bu əməkdaşlığın əhəmiyyətini xüsusi vurğulayıb.

Müdafiə Nazirliyinin idarə rəisi general-mayor Rasim Əliyev, Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, Mətbuat Şurası sədrinin müavini Umud Rəhimoğlu, Milli Məclisin deputatı Aqil Abbas, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli, "APA Holdinq"in rəhbəri Vüsalə Mahirqızı, "Teleqraf Holdinq"in rəhbəri Aynur Quliyeva, "Azeridefence" jurnalının baş redaktoru Rəşad Süleymanov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "Ekspress" qəzetinin baş redaktoru Qəzənfər Bayramov, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, "Haqqin.az" saytının rəhbəri Eynulla Fətullayev, "Qaziler.az" saytının rəhbəri Rey Kərimoğlu, "Ordu.az" saytının redaktoru Şahin Qocayev və başqaları ordu-media əməkdaşlığının intensivləşməsini zəruri edən məqamlardan danışaraq istər səmərəliliyin artırılmasına, istərsə də cəmiyyətdə vətənpərvərlik təbliğatının gücləndirilməsinə yönələn təkliflərini səsləndiriblər.

Görüş iştirakçıları bu kimi tədbirlərin aktuallığını nəzərə alaraq bundan sonra da əlaqəli əməkdaşlıq fəaliyyətinin davam etdiriləcəyinə əminliklərini ifadə ediblər.

**"Azərbaycan Ordusu"**

# "Güclü dövlətin vətəndaşı, qüdrətli ordunun əsgəriyik!"





**(Əvvəli 1-ci səhifədə)**

Zabitlə söhbət edə-edə ətrafı seyr edir, divarda təşviqat guşəsi, dövlət rəmzlərimiz barədə məlumatlar, Ümummilli Liderimizin, Ali Baş Komandanımızın ordu ilə bağlı fikirləri, Milli qəhrəmanlarımızın şəkilləri diqqətimizdən yayınmır.

Döyüş növbətçiliyi aparan əsgərlərimizin yanına yollanırıq. Zabit Namiq Soltanov onu da bildirir ki, bu mövqe strateji əhəmiyyətə malikdir. "Ona görə də şəxsi heyətimizin nizam-intizamına və döyüş əhval-ruhiyyəsinə xüsusi diqqət yetirilir. Rəhbərlik tərəfindən hərbi potensialın yüksək səviyyədə olmasına xüsusi nəzarət edilir. Məqsəd odur ki, istənilən təxribata tutarlı, layiqli cavab verək. Ali Baş Komandanımızın qeyd etdiyi kimi: "Nə qədər torpaqlarımız işğal altındadır, bu belə də olmalıdır". Çətin dağlıq şəraitdə xidmət edən zabit və əsgərlərimiz üçün bir amal var - Vətən o zaman Vətən olur ki, o qorunur. Şəxsi heyətimiz bilir ki, Dədə Qorqudun təbirincə desək, "torpağı əkib becərməsən qorumağa dəyməz, qorumasan əkib-becərməyə". Təmas xətti boyunca etibarlı əməliyyat mövqeyini təmin edən, hərbi intizamını möhkəmləndirən, peşəkarlığını artıran zabit və əsgərlərimiz xidməti vəzifələrini şərəf və ləyaqətlə yerinə yetirməyə, torpaqlarımızı işğaldan azad etməyə hər zaman hazırdırlar."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elxan Əmiraslanovun məruzəsindən sonra başa düşürəm ki, müşahidə məntəqəsindəyik. Hərbi qulluqçu məlumat üçün bildirir ki, əsgərlərimiz heç zaman ayıq-sayıqlığını itirmir, buradan qarşı tərəfi rahatlıqla müşahidə edir, düşmənin istənilən təxribatının qarşısını alırlar. Onlar qarşı tərəfi nəzarətdə saxlamaqla yanaşı, baş verən hadisə barədə müşahidə dəftərində qeydiyyat da aparırlar.

Həmsöhbətim onu da qeyd edir ki, şəxsi heyətimiz torpaqlarımızın işğaldan azad ediləcəyi günü gözləyir. "Hər birimiz yaxşı anlayırıq ki, Vətənimizin bütövlüyünün qorunması naminə bizlər səngərdə şərəf və ləyaqətlə dayanmalıyıq. Əsgərlərimizin bir arzusu var: torpaqlarımızın düşməndən azad edilməsi bizim hərbi xidmət dövrümüzə təsadüf etsin. Şəxsən mənim üçün qalib əsgər kimi ailəmizin yanına dönmək ən böyük şərəf olar."

- Bizim üçün ən böyük şərəf odur ki, bu gün Azərbaycan Ordusunun əsgəriyik, - deyə əsgər Murad Zülfüqarov söhbətə başlayır. - Hər birimiz yaxşı bilirik ki, güclü dövlətin vətəndaşı, qüdrətli ordunun əsgəriyik. Rəhbərliyimizin diqqət və qayğısını, himayədarlığını hər zaman üzərimizdə hiss edirik. Əsgərlər arasında münasibətlər səmimilik və qarşılıqlı inam əsasında qurulub. Yeni gələn əsgərlərimiz də tez bir zamanda bu ab-havaya alışır, zabitlərimiz tərəfindən öyrədilənləri yüksək səviyyədə mənimsəyir və döyüş potensialımızı günbəgün artırırıq. Arzumuz, istəyimiz, məqsədimiz isə aydındı...

Müşahidə postunda keşik çəkən əsgər Səbail Qasımzadə Lənkəran rayonundan həqiqi hərbi xidmətə çağırılıb. Əsgər söhbət zamanı ön xətdə xidmət etməsindən şərəf duyduğunu bildirir: "Ön xətdə xidmət etmək şərəflidi, ancaq həm də hər zaman təhlükə altında olmaq deməkdir. Bu bizi qorxutmur, narahat etmir. Çünki hər zaman ehtiyatı əldən verməməyə çalışırıq. İçimizdə o qədər Vətən, torpaq sevgisi var ki, ölüm də bizi qorxutmur."

Əsgər Ramil Əsgərəliyev bildirir ki, zabitlər bizlərə hərb elminin sirlərini öyrətməklə bərabər, daim mənəvi dəstək də göstərirlər. "Biz öz həyatları ilə daim orduya bağlı olan zabitlərimizdən ilham alırıq. Azərbaycan əsgəri öz komandirlərinə güvənir, komandirlər də öz əsgərlərinə. Düşmən aprel döyüşlərindən sonra yaxşı anlayır ki, bu birliyin qarşısında heç bir ordu dayana bilməz. Azərbaycan əsgəri torpaqlarımızı azad etmək naminə istənilən addımı atmağa, qəhrəman oğullarımızın getdiyi yolu təkrarlamağa hazırdı."

Əsgər Nicat Rəhimov söhbətə qoşularaq deyir ki, atababa yurdumuzu işğaldan azad etmək üçün canımız, qanımız bahasına döyüşməyə hazırıq. "Ən əsası odur ki, bu gün bir əsgər kimi üzərimizə düşən vəzifəni məsuliyyətlə yerinə yetirək. Axı torpaqlarımızın 20 faizi işğal altındadı, bir milyondan çox soydaşımız yurd-yuvasından didərgin düşüb. Buna görə də bu gün nankor düşmənlə üzüzəyik. Minlərlə qəhrəmanlıq nümunələri olan bir xalqın ordusunun əsgəri Mübarizlərimizin, Fəridlərimizin, Çingizlərimizin... getdiyi yolu təkrar etmək və daha böyük hünər göstərmək arzusu ilə yaşayır. Biz də qəhrəman ola bilərik və olacağıq. Müqəddəs döyüşün başlayacağı günü səbirsizliklə gözləyirik.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**

*Azərbaycan gəncliyi*

# Vətənpərvər gəncliyimiz formalaşıb



Hər bir cəmiyyətin sabahını etibar edə biləcəyi sağlam, müasir, intellektli və milli-mənəvi dəyərlərimizlə "silahlanan" gəncliyə böyük ehtiyacı var. Çünki mövcud cəmiyyətin potensial güc mənbəyi yalnız gənclərdir.

Bu gün ölkəmizdə cəmiyyət quruculuğunun bütün mərhələlərində təmsil olunan gənclər milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi istiqamətində böyük işlər aparır və demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi, iqtisadi islahatların həyata keçirilməsində fəal iştirak edirlər.

Ümummilli liderimiz Heydər Əliyevin gənclər siyasəti ilə bağlı ideyaları, irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edir. Ulu Öndər həmişə gəncliyə böyük ümidlər bəslədiyini və "Azərbaycanın gələcəyi gənclərin əlindədir" deyirdi. Ümummilli liderimizin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Hələ müstəqilliyimizin ilk illərində Ulu Öndər fəxrlə deyirdi: "Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır".

İllərdir xain qonşularımızın xalqımıza çəkdirdiyi ağır müharibə iztirablarında gənclərimizin yarıda qırılmış şəhid ömürləri əks olunur. Əslində, bizlərə qürur yaşadan o məqamın adı gəncliyin şəhidliyə gedən zirvəsidir. Yaxşı bilirik ki, savaşa tək-tək insanlar deyil, bütöv bir toplum girir. Bəli, o toplum gənclərdən ibarətdir. Döyüş meydanında düşmən üzərində qazanılan qələbə gəncliyin iradəsindən və mənəvi əxlaqından asılıdır. Müharibə bütün arzuolunmazlıqları ilə bərabər həm də bir millətin genetik xarakterinin, mənəviyyatının və əxlaqının nümayişidir. Yurd, Vətən, Torpaq, tarix, milli mədəniyyət, sosial quruluş, hətta iqlim belə etnosu və milləti müəyyənləşdirən amillərdir. Bunların bütövləşməsində yurd anlayışı mahiyyətcə mənəviləşir və üzərində yaşayan xalqın milli psixologiyasını, əxlaqını və mədəniyyətini yaradır. Və hər bir xalqın inkişaf strategiyasını da onun müasir gəncliyi müəyyənləşdirir. Beləliklə, müdrik rəhbər, ümummilli liderimiz Heydər Əliyevin "müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır" müqəddəs kəlamı deyilənləri bir daha təsdiqləyir.

Bu gün Azərbaycan Ordusunun sıralarında gənc, vətənpərvər, milli-mənəvi dəyərlərimizə sadiq əsgər və zabitlər xidmət edirlər. Ordu gəncliyi düşmən tapdağında olan torpaqlarımız uğrunda hər an Ali Baş Komandanın döyüş əmrinə hazırdır. Onlar bu gün ata-babalarının haqq işinə sadiq qalaraq, 30 ildir davam edən Dağlıq Qarabağ müharibəsində kimsənin torpağına, mülkünə göz dikmədən, heç bir çirkli niyyəti olmadan, sadəcə ona aid olan Vətənini, yurdunu, torpağını yağı tapdağından azad etməyi, tarixini, mədəniyyətini qorumağı qarşısına məqsəd qoyub... Bu haqq uğrunda neçə-neçə gənc şirin canından keçdi.

Bu üstün əxlaqın formalaşmasında, sağlam təməlin yaranmasında və yurd sevdasının içimizdə alovlanmasında Birinci Qarabağ savaşının şəhid gəncliyinin şərəfli yolu, son illərdə Milli Qəhrəmanımız Mübariz İbrahimov kimi igidlərimizin qəhrəmanlığı və onun nəşini xilas etmək üçün müqəddəs yola çıxan Fərid kimi oğulların fədakarlığı əsl örnəyə çevrilir. Gəncliyimiz Mübarizin qəhrəmanlığın bədii əsərlərdən oxuyub, kinolardan öyrənmədi, həyatında gördü, müasiri oldu. Mübarizin qəhrəmanlığı gəncliyimizin ümidlərini dirçəltdi, Böyük Qələbəyə inamını gücləndirdi. Mübariz gəncliyə bu mesajı verdi: "Qələbə, Qələbə mənimdir deyə bilənindir. Mən bu torpağa Böyük Qələbəyə inamın toxumunu əkdim, qanımla suvardım, onu indi siz böyüdün", - dedi. Aprel savaşında canından keçən Samir Kaçayev, Orxan Əliyev, Ruhin Qəhrəmanov, Rəvan Nurayev, Mahir Quliyev, Mikayıl Vahabzadə kimi gənclərimizin şəhid düşdüyü torpaqda "Böyük Qələbə bizimdir" deyə bildik. O şəhid gənclərin qanı ilə torpaq Vətənləşdi. Beləcə, gənclik bir xalqın əzmidir, qüruru və sabaha ümididir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Aprel döyüşləri - böyük zəfərin başlanğıcı

*2016-cı il aprelin əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qalanda ordumuzun bölmələri əks-həmlə ilə təxribatların qarşısını aldı. Bu, aprel döyüşləri kimi tarixləşdi.*

Döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifi alt-üst edildi.



Aprelin 4-ü Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Amma döyüşçülərimizin şücaəti qarşısında düşmən məqsədinə nail ola bilmədi. Onların əlavə qüvvələr göndərməklə hücumu davam etdirmək planı da baş tutmadı. Hazırlıqlı bölmələrimiz tərəfindən düşmənin strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazasının qərargahına və erməni könüllülərini daşıyan avtobusa zərbə endirildi.

Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə, Madagiz və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən önləyici zərbələrlə dağıdıldı.

Düşmənin atəş nöqtələrinə və artilleriya qurğularına vurulan zərbələr, kəşfiyyat qruplarımız tərəfindən həyata keçirilən müvafiq tədbirlər nəticəsində şimal istiqamətində Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış məntəqəsi ətrafında, cənubda isə Horadiz şəhəri və Araz çayı boyu Cəbrayıl rayonunun bəzi kəndlərinin düşmən təhlükəsindən qorunması məqsədilə Lələtəpə yüksəkliyi və onun ətrafındakı strateji cəhətdən mühüm ərazilər azad edildi. Bölmələrimiz tərəfindən azad edilən ərazilərdə yeni mövqelər quruldu və mühəndis-istehkam tədbirləri həyata keçirildi.

Erməni silahlı qüvvələri bu döyüşlərdə böyük itkilərə məruz qaldı. Bizdə olan məumatlara görə, 320-dən artıq düşmən məhv edildi və 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarıldı, Madagiz yaşayış məntəqəsinə yerləşən qərargahı və əsas hərbi hissələri məhv edildi. Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılması imkanı əldə edildi.

Aprel döyüşlərindən sonra - may ayında Ermənistan və Azərbaycan prezidentləri münaqişənin tənzimlənməsi üzrə ATƏT-in Minsk Qrupuna həmsədrlik edən ölkələrin rəsmilərinin iştirakı ilə Vyanada görüşdülər, həmçinin iyunun 20-də Sankt-Peterburqda Rusiya Prezidentinin iştirakı ilə üçtərəfli danışıqlar keçirildi. Görüşlərdə münaqişə bölgəsində etimad tədbirlərinin möhkəmləndirilməsi, insidentlərin araşdırılması mexanizmlərinin yaradılması, ATƏT-in fəaliyyətdə olan sədri ofisinin genişləndirilməsi haqqında razılıq əldə edildi.

Əslində, Ermənistanın hər dəfə cəbhədə təxribata əl atmasının səbəbi heç kimə sirr deyil: cinayətkar rejim münaqişənin nizamlanması ilə bağlı danışıqlar ərəfəsində daim cəbhədə vəziyyəti gərginləşdirir və bununla da öz xalqının fikrini ölkədəki ictimai-siyasi, sosial-iqtisadi böhrandan yayındırmağa cəhd edir. Düşmənlə müqayisədə Azərbaycan isə münaqişənin dinc yolla həllinə tərəfdardır və bu istiqamətdə səylərini əsirgəmir.

Azərbaycan Ordusu düşmənə qarşı öz ərazilərimizdə əməliyyat aparıb. Bu baxımdan da beynəlxalq təşkilatlar, nüfuzlu ölkələr aprel döyüşləriylə bağlı Azərbaycan əleyhinə bir söz deyə bilməzdilər. Azərbaycan qarşılıqlı qaydada hərbi əməliyyatları dayandırmağa razı oldu və bununla da münaqişənin sülh yolu ilə həllinə üstünlük verdiyini bir daha nümayiş etdirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil, bütün region üçün ciddi təhlükə mənbəyidir. Rəsmi Azərbaycan bəyan edir ki, işğal faktı, mövcud status-kvo ilə barışmaq və Ermənistanın təxribatlarına dözmək niyyətində deyil. Əksinə, düşmənə layiqli cavab vermək, torpaqlarını azad etmək iqtidarındadır.

Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin prinsipial, qətiyyətli siyasəti sayəsində Azərbaycanın ardıcıl şəkildə qazandığı diplomatik uğurlar, Ermənistan rəhbərliyini çətin vəziyyətdə qoyur, həmçinin işğalçı ölkə beynəlxalq iqtisadi layihələrdən kənarda qalır. Dövlət başçımızın Azərbaycan Ordusunun aprel qələbəsinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüşündə də qeyd etdiyi kimi, Ermənistan öz müstəqil həyatını Azərbaycan torpaqlarının işğalına qurban verib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev həmişə bəyan edir ki, Ermənistanın müstəqil bir ölkə kimi fəaliyyəti qonşularla münasibətlərini tənzimləməkdən və öz qüvvələrini Azərbaycan torpaqlarından qeyd-şərtsiz və dərhal çıxarmaqdan asılıdır.

"Biz sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq son illər ərzində aldığımız ən müasir, - mən onu bir daha qeyd etmək istəyirəm, - dünyanın ən müasir silahları bizə çox böyük imkan yaradır. Aprel döyüşləri zamanı biz sadəcə olaraq imkanlarımızın cüzi bir faizini nümayiş etdirdik. Bu, bir daha onu göstərir ki, aprel döyüşləri Ermənistanın təxribatı idi. İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi, biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdusa, biz o hədəflərə də çatdıq. Bu gün hərbçilər və beynəlxalq mütəxəssislər bilirlər ki, əldə etdiyimiz strateji mövqelər tamamilə vəziyyəti dəyişdirib. Əgər aprel döyüşləri zamanı genişmiqyaslı əməliyyat keçirmək fikrində idiksə, biz öz hərbi potensialımızdan istifadə edərdik. Bunlar sirr deyil. Burada hər şey beynəlxalq monitorinq altındadır. Bilirlər ki, bizim uzaqmənzilli raketlərimizin, pilotsuz döyüş aparatlarımızın gücü nədən ibarətdir. Biz onlardan demək olar ki, istifadə etmədik. Amma əgər istifadə etsək, işğal olunmuş torpaqlarda düşmənin daşı-daş üstdə qalmayacaq. Bunu onlar bilsinlər və özünü növbəti dəfə biabır edən Ermənistanın siyasi rəhbərliyi danışığına fikir versin və bizim səbrimizlə oynamasın".

Prezident İlham Əliyev bu sözləri ilə bir daha təsdiqləyir ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövlətinin yaradılmasına heç vaxt icazə verilməyəcək. "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi Azərbaycanın tərkibində həmişə olub, bu gün də onun tərkibindədir, gələcəkdə də olacaq".

**Mayor**
**Ramil ABBASOV,**
**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Şagirdlər Heydər Əliyev adına Hərbi Liseylə tanış olublar





Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş qrafikə əsasən, muxtar respublikanın şəhər və rayon təhsil şöbələrinin tabeliyində olan ümumtəhsil məktəblərindəki təhsillərini Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseydə davam etdirmək istəyən şagirdlərin liseylə tanışlığı təşkil edilir.

AZƏRTAC xəbər verir ki, bu məqsədlə Şərur rayonunun ümumtəhsil məktəblərinin 100-dən çox şagirdi liseydə yaradılan şəraitlə tanış olub, hərbi dərslərdə iştirak ediblər.

Liseyin zabitləri şagirdlərə buradakı şəraitdən, kursantların təhsil almaları üçün yaradılan imkanlardan danışıblar. Liseyin muzeyi ilə tanış olan şagirdlərə eksponatlar barədə ətraflı məlumat verilib. Bildirilib ki, muzeydə təhsil ocağının müxtəlif dövrlərdəki fəaliyyətinə aid fotoşəkillər, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən kitablar nümayiş etdirilir.

Liseyin yataqxanası, kursantların asudə vaxtlarını səmərəli təşkil etmək üçün müxtəlif stolüstü oyun vasitələri, televizor, kitablar olan istirahət otağı da şagirdlərdə yüksək təəssüratlar yaradıb. Atəş otağında məktəblilərə atəş hazırlığından danışılıb və virtual atış öyrədilib.

Tanışlıq zamanı diqqətə çatdırılıb ki, mövcud imkanlardan səmərəli istifadə edən müəllim-zabit heyəti bilikli, vətənpərvər, sağlam və əqidəli hərbçilərin yetişdirilməsində əllərindən gələni əsirgəmirlər. Liseydə keçilən dərslərlə yanaşı, müxtəlif olimpiada və yarışlar da təşkil olunur, kursantların muxtar respublikada keçirilən tədbir və yarışlarda iştirakı təmin edilir. Bütün bunların nəticəsidir ki, Heydər Əliyev adına Hərbi Liseyin uğurları ildən-ilə artır, ali hərbi məktəb və akademiyalara qəbul olunan kursantların sayı çoxalır.

Kursantlarla nahar edən şagirdlər buradakı şəraitdən razı qaldıqlarını deyiblər.

Qeyd edək ki, martın 6-dək muxtar respublikanın digər ümumtəhsil məktəblərindəki zabit olmaq istəyən şagirdlərin də liseyə ekskursiyaları təşkil olunacaq.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***15 fevral 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 127 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Vazaşen kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Cəfərli, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şıxlar, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***16 fevral 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 123 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Şirvanlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Nümunəvi xidmət*

# Xalqın inamına güvənirik

***"N" hərbi hissəsində xidmət edən gizir Eldar Eynalovun ordu sıralarında 2011-ci ildən xidmət etdiyini öyrənirəm. Həqiqi hərbi xidmətini ön xətt bölmələrindən birində keçib. Vətənpərvərliyi, hərbçi olmaq istəyi onu yenidən ordu sıralarına qaytarıb.***



"Qarabağ müharibəsi illərində vətəndaşlarımızın doğma torpaqlarından didərgin salınması, erməni qəsbkarları tərəfindən törədilən soyqırımlar, faciələr məndə düşmənə nifrət hissi yaratmışdı. Həm də bu döyüşlərdə şücaət göstərən həmvətənlilərimizin qəhrəmanlığını örnək bilmişəm. Müəllimlərimə deyirdim ki, böyüyəndə hərbçi olacam, torpaqlarımızı işğaldan azad etmək üçün döyüşəcəm", - Eldar deyir.

Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzində gizirlik kursunu bitirdikdən sonra düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində xidmətə başlayıb. Xidmətin ilk günlərindən bacarığı, məsuliyyəti ilə seçilib. Müxtəlif hərbi hissələrdə xidmət yolu keçən gizir bu bölmədə də xidmətini uğurla davam etdirir.

Bölmənin göz oxşayan təmizliyi, səliqə-sahmanı, əsgərlərin nizam-intizamı onun vəzifəsinin öhdəsindən layiqincə gəldiyinin təsdiqidir. Komandirləri deyir ki, Eldar həm yuxarı komandirlərinin, həm də tabeliyindəki şəxsi heyətin rəğbətini qazanıb.

Gizir Eldar Eynalov deyir ki, hər səhər şəxsi heyətin sıra baxışını keçirir, üst-başlarının qaydasında olmasını diqqətdə saxlayıram. "Həmçinin əsgərləri vaxtlı-vaxtında tibbi müayinə etdirir və digər gündəlik fəaliyyətlərinə də nəzarət edirəm. Döyüş hazırlığı, maddi-texniki təminatla yanaşı, əsgərlərin məişət şəraiti də daim diqqət mərkəzindədir. Bizim bölükdə bütün təminatlarımız yüksəkdir. Əsgərlər isti qış geyimləri ilə təmin olunublar. Silah-sursata da teztez baxış keçirir, onlara qulluq göstərir, döyüşə daim hazır vəziyyətdə saxlayırıq. Əsgərlərin də hər biri vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Biz Vətənin keşiyini çəkirik."

Gizir əsgərlərin mənəvi durumu ilə də yaxından maraqlanır, qayğılarına qalır, onlara doğma münasibət göstərir. Əsgərlər döyüş növbəsinə getməzdən əvvəl onlarla söhbət aparır, təhlükəsizlik qaydalarına əməl etmələri haqqında təlimatlandırır.

- Döyüşə hər an hazırıq, - deyə vətənpərvər gizir söhbətinə davam edir. - Aprel döyüşlərindəki qələbəmiz ruh yüksəkliyimizi daha da artırdı. Mən və əsgərlərim yaxşı bilirik ki, müqəddəs vəzifə yerinə yetiririk. Bu, şərəfdir.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Prezident İlham Əliyev veteranlara dövlət qayğısı siyasətinin müasir mərhələdə inkişafı üçün çox böyük işlər görüb




*Fevralın 14-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında aprelin 11-də keçiriləcək prezident seçkiləri ilə bağlı ümumi yığıncaq təşkil edilib.*

Əvvəlcə Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov ölkəmizdə keçirilən bütün seçkilərdə veteranların fəal iştirak etdiklərini bildirib. O, aprelin 11-də keçiriləcək prezident seçkilərində də bu fəallığın yüksək səviyyədə olacağına əminliyini ifadə edib.

Tofiq Ağahüseynov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qazanılan uğurlardan danışıb, Azərbaycanın dünyanın iqtisadi cəhətdən sürətlə inkişaf edən, mütərəqqi, sivil dəyərlərə malik ölkə kimi tanındığını vurğulayıb. Bütün sahələrdə ildən-ilə inkişaf edən Azərbaycanın hərbi qüdrəti də artır, ordumuz güclənir və bu, bizdə erməni işğalında olan torpaqlarımızın azad ediləcəyinə böyük inam yaradır. Xalqın rifahının və sosial vəziyyətinin yaxşılaşması, o cümlədən veteranlara göstərilən qayğı və diqqətin getdikcə yüksəlməsi, eləcə də digər istiqamətlərdə qazanılan nailiyyətlər bizi növbəti seçkilərdə yenə də İlham Əliyevə səs verməyə sövq edir.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov seçkilərlə əlaqədar qurumun qarşısında duran vəzifələrdən, veteranların bu işdə daha yüksək fəallıq göstərmələrinin əhəmiyyətindən danışıb. O, seçkilərdə iştirak və təbliğat işinin təşkili ilə bağlı məsələlərdə yerli təşkilatlara lazımi köməyin göstərilməsinin, hamını səsvermə günü seçki məntəqələrinə gedərək vətəndaşlıq borcunu yerinə yetirməsinin vacibliyini qeyd edib. Diqqətə çatdırıb ki, Prezident İlham Əliyev veteranlara dövlət qayğısı siyasətinin müasir mərhələdə inkişafı üçün çox böyük işlər görüb. Onun imzaladığı dövlət proqramları və sərəncamlar əsasında xüsusilə müharibə veteranları hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Veteranlara prezident təqaüdünün verilməsi, hər il 9 May - Qələbə Günü ərəfəsində MDB məkanında ən yüksək birdəfəlik yardım edilməsi, fəal veteranların orden və medallara layiq görülməsi və həyata keçirilən başqa tədbirlər bunun parlaq sübutlarıdır. İlham Əliyev görkəmli dövlət adamı, ictimai xadimdir. Prezidentin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ən yüksək kürsülərdən Azərbaycanın ədalətli və obyektiv mövqeyini qətiyyətlə səsləndirməsi biz veteranları, Vətənin azadlığı uğrunda həlak olmuş əsgər və zabitlərin ailələrini hədsiz fərəhləndirir və torpaqlarımızın tezliklə işğaldan azad olunacağına inamımızı daha da artırır.

Veteranların layiqli namizədi olan Prezident İlham Əliyevin genişmiqyaslı fəaliyyəti və mühüm xidmətləri ilə bütün xalqımızın səsini qazanmağa haqqı çatdığını vurğulayan C.Xəlilov səsvermə günü veteranların yenidən öz seçimlərinə sadiq qalacaqlarına əminliyini bildirib. O, əmin olduğunu bildirib ki, veteranlar aprelin 11-də layiqli namizəd İlham Əliyevə səs verəcəklər.

Tədbirdə "Azərbaycan Qarabağ Əlilləri və Şəhid Ailələri" İctimai Birliyinin sədri Mehdi Mehdiyev, "Çernobıl Əlilləri İttifaqı" İctimai Birliyinin sədri Mirhəsən Həsənov, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin sədri Füzuli Rzaquliyev, Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin üzvü, professor Bəhram Zahidov, Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri Fərhad Süleymanov, ehtiyatda olan polkovnik Sücəddin Abdullayev və digər çıxış edənlər də veteranlara göstərilən diqqət və qayğıdan danışıb, onların aprelin 11-də hamılıqla İlham Əliyevə - davamlı inkişafa, sabitliyə və Azərbaycanın xoşbəxt gələcəyinə səs verəcəklərini qeyd edib və hamını səsvermə günü fəal olmağa çağırıblar.

Sonda Azərbaycan müharibə veteranları təşkilatlarının ümumi yığıncağının iştirakçıları aprelin 11-də ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə bağlı bəyanat qəbul ediblər.



Bəyanatda deyilir ki, Prezident İlham Əliyev əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan veteranlara dövlət qayğısı siyasətinin Azərbaycanda müasir mərhələdə daha da inkişaf etdirilməsinə nail olub. Belə ki, Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə qəbul edilən "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanununda əksini tapmış diqqət və qayğı İlham Əliyevin prezidentliyi dövründə daha da genişləndirilib.

Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli istiqamətində göstərdiyi səylərin yüksək qiymətləndirildiyi bəyanatda deyilir: "Prezidentimiz münaqişənin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həlli üçün bütün zəruri siyasi və diplomatik addımları atır. Respublika veteranları dövlətimizin qarşısında duran taleyüklü məsələlərin həlli üçün özünü doğrultmuş, xalqımız tərəfindən dəstəklənən siyasətin davam etdirilməsini vacib bilirlər. Məhz buna görə biz, respublikamızın bütün bölgələrindəki veteran təşkilatlarını təmsil edən təşkilat olaraq veteranları hamılıqla yerlərdə seçkiqabağı tədbirlərdə fəal iştirak və düzgün seçim edib aprelin 11-də İlham Əliyevə - davamlı inkişafa, sabitliyə və Azərbaycanın xoşbəxt gələcəyinə səs verməyə çağırırıq. İnkişaf edən, güclənən, dünyanın qabaqcıl ölkələri sırasında layiqli yer tutan Azərbaycanın sınaqlardan çıxmış lideri İlham Əliyev ölkə veteranlarının layiqli namizədidir. Buna görə bütün veteranları İlham Əliyevə səs verməyə çağırırıq".

Bəyanatı ümumi yığıncaqda iştirak edən veteran təşkilatlarının rəhbərləri imzalayıblar.

# Xarici ölkələrin Azərbaycandakı hərbi attaşeləri Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində olublar

*Fevralın 15-də xarici ölkələrin Azərbaycana akkreditə olunmuş hərbi attaşeləri Müdafiə Sənayesi Nazirliyinin "Telemexanika" və "Araz" zavodlarında olublar.*

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, tanışlıq məqsədilə keçirilən tədbirdə 19 ölkədən 29 nümayəndə iştirak edib.

Hərbi attaşelərə nazirliyin müəssisələri ilə bağlı geniş məlumat verilib. Müəssisələrlə tanışlıq zamanı istehsal olunan müdafiə təyinatlı məmulatlara baxış keçirən qonaqlar istehsal prosesini yaxından izləyiblər.




Sonda hərbi attaşelər tədbirin təşkilinə görə Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyinə təşəkkürlərini bildiriblər.

# "ATƏT PA-nın sessiyasında mühüm məsələlər müzakirə olunacaq"

*ATƏT Parlament Assambleyasının 17-ci qış sessiyasında mühüm məsələlər müzakirə olunacaq. Bu sözləri AZƏRTAC-a ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev deyib.*

Azay Quliyevin sözlərinə görə, sessiya çərçivəsində bir çox aktual mövzulara, o cümlədən "yalançı" (fake) xəbərlər, iqlim dəyişikliyi, silahlar üzərində nəzarət, miqrasiya, terrorizm və humanitar məsələlərə dair müzakirələr aparılacaq. ATƏT rəsmilərinin qeyd olunan mövzulara dair məruzələrini dinləmək, o cümlədən İtaliyanın ATƏT-ə sədrlik etdiyi dövrdə üstünlük verdiyi əsas istiqamətlərlə tanış olmaq imkanı yaranacaq.

Qurumun vitse-prezidenti bildirib ki, qış sessiyası çərçivəsində ATƏT PA-nın Daimi Komitəsinin və o cümlədən təhlükəsizlik və siyasi məsələlər, insan haqları, demokratiya və humanitar məsələlər, iqtisadiyyat, elm, texnologiya və ətraf mühit məsələləri komitələrinin birgə və ayrılıqda iclasları olacaq. A.Quliyev onu da bildirib ki, komitə iclaslarında cari il iyulun 7-11-də Berlində keçiriləcək illik sessiyada qəbul olunacaq qətnamə layihələri də müzakirə olunacaq.

Redaksiyanın poçtundan

# Bu gün fırça mənim üçün bir silahdır

*İntiqam Ağayev rəssamdır. Sumqayıt şəhərində anadan olub. Əzim Əzimzadə adına rəssamlıq məktəbini bitirib. Vətənpərvərlik elə bir duyğudur ki, məqamında özünü daha həssaslıqla təsdiqləyir. Bu, vətəndaşlıq deməkdir. Müstəqil dövlətimizin ordusu yarananda İntiqam da onun ilk əsgərlərindən biri kimi Qarabağın müdafiəsinə yollanıb. Şuşa, Ağdam, Tərtər, Goranboy, Füzuli və başqa bölgələrdə vuruşub. 1993-cü ildə zabitlik kursu keçərək kiçik leytenant rütbəsi alıb. Tərtər rayonunun ərazisi uğrunda gedən döyüşlərdə yaralanıb, müalicə olunandan sonra yenə də səngərlərə qayıdıb. 2-ci qrup Qarabağ müharibəsi əlilidir. Hər rəssamın fərqləndirdiyi mövzular olur. Döyüşmüş zabit kimi müharibə yolu keçmiş rəssam məhz bu mövzuda əsərlər yaradır. Bunu vətəndaşlıq borcu bilir...*

**"Azərbaycan Ordusu"**



1992-ci il fevralın 26-da bizi Xocalıya göndərdilər. Həmin vaxt Xocalı faciəsi baş vermişdi. Bizi yaralıları və meyitləri çıxarmağa cəlb etdilər. Gördüklərimdən dəhşətə gəldim. Şəhər sakinlərinin meyitləri qarlı meşələrə, dağlara səpələnmişdi. Hər tərəf meyitlərlə dolu idi. İki qocanın və beləkdə olan bir körpənin meyitini çıxara bildik. Onları Ağdam rayonundakı məscidə gətirdik. Bu müqəddəs məkana çatanda gördük ki, uşaq tərpənir, sağdır. O, beləkdə olduğuna görə şaxta onu tam dondurub öldürə bilməmişdi. Sonra vertolyotların uçuşu üçün təhlükə yarandığından gözləməli olduq. Bir neçə gündən sonra bizi Ağdam və Ağdərənin müdafiəsinə göndərdilər.

Hələ kiçik yaşlarımdan hiss etmişdim ki, nəsə çəkmək istəyirəm. İlk "əsərlərimi" divarlara və asfalta çəkirdim. Zaman keçdikcə bu sahəyə marağım daha da artırdı. Çəkdiyim şəkillər ildən-ilə bir-birindən yaxşı alınırdı. Daim ürəyimi döyəcləyən arzular məni Əzim Əzimzadə adına rəssamlıq məktəbinə apardı.

Mənim üçün müharibə mövzusunda əsər yaratmaq ağrılı və əzablıdır. Bu iş mənə çox çətinliklə başa gəlir. Bu, bəlkə də döyüşlərdə iştirak etdiyimdən, gördüyüm qanqada və göz yaşlarından irəli gəlir. Müharibənin bütün kiçik detalları mənə tanışdır. Döyüşdüyüm müddətdə qanlı hadisələrlə çox rastlaşmışam.

Müharibə dağıdıcı və məhvedici olsa da, o həm ədəbiyyata, həm də incəsənətə mövzular verir. İncəsənət və ədəbiyyat adamları isə bundan bəhrələnərək müharibələrə nifrət aşılayan əsərlər yaradırlar.

Hər hansı bir əsər kətan üzərinə köçməzdən əvvəl rəssamın ürəyində yaranmalıdır. Belə tabloların ömrü həmişə uzun olur. Mənim "İsti qar" adlı bir əsərim var. Bax, mən orada soyuq rənglərdən isti tablo yaratmağa çalışmışam. Həmin əsər də müharibə mövzusundadır. Tabloya baxanda görürük ki, əsgərlər qarın üstündə ocaq qalayıb isinmək istəyirlər. Buna görə də mən əsərimə "İsti qar" adı vermişəm.

Aprel döyüşləri ordumuzun qüdrətini, zabit və əsgərlərimizin gücünü və hünərini göstərdi. Qələbə həm bir rəssam, həm də bir keçmiş döyüşçü kimi məni çox sevindirdi. Sevincimi bu mövzuda çəkdiyim "Hücum" adlı əsərə də səpələdim. Təvazökarlıqdan uzaq olsa da deyim ki, əsər güclü alınıb. Deyəsən, ürəyimdən keçənləri fırçanın dili ilə deyə bilmişəm. "Hücum" tablosunda böyük qələbə ovqatı var.



Hamımız intizarla qələbə gününü, qələbə anını gözləyirik. Xalqımızın gündən-günə güclənən ordusundan gözləntisi yalnız Qələbədir. İnşallah, çox keçməz qapılarımızı xoş xəbərlər döyər. Düşünürəm ki, Qələbə mövzusunda çəkilmiş əsərlər adi yox, möhtəşəm və çox qeyri-adi olmalıdır. Burada həm qələbə, həm mübarizlik, həm də sevinc vəhdət təşkil etməlidir. Qələbə mövzusunda çəkilmiş əsərlər arzu və istəklərimizin çələnginə çevrilməlidir.

Bəzən mənə sual verirlər ki, hansı rənglə işləməyi sevirsən.

Mənim üçün rənglərin fərqi yoxdur. Amma sarı, qırmızı və narıncı rənglərə sevgim daha böyükdür.

Ötən ilin noyabrında rəssamlıq həftəsi çərçivəsində C.Naxçıvanski adına Hərbi Liseydə zabit və kursantlarla görüşüm oldu. Çox yaddaqalan bir gün yaşadım. Ordumuzun gələcək zabitləri qarşısında danışmaq, əsərlərimi nümayiş etdirmək mənim üçün qürurverici idi. Kursantları görəndə ürəyim dağa döndü. Belə görüşlər yaradıcılığıma müsbət təsir göstərir.

Jurnalist Vahid Məhərrəmovun böyük fikir adamı Plutarxdan xatırlatdığı bir fikri unutmamışam. Şəkil çəkmək, səssiz poeziyadır, poeziya isə danışan şəkildir.

Çox müdrik fikirdir. Bu səssiz poeziya rəssamı sehirləyən, ona ilham verən güclü bir qüvvədir. Rəssam bu səssiz poeziyanın içində özünü çox rahat hiss edir və yeni-yeni əsərlər yaratmağa köklənir.

Görkəmli rəssamımız Vidadi Nərimanbəyov Böyük Vətən müharibəsi mövzusunda maraqlı və yaddaqalan əsərlər çəkib. Aradan illər keçsə də, bu əsərlər hələ də öz təsir gücünü itirməyib. Ümumiyyətlə, dəyərli rəsm əsərlərinin ömrü çox uzundur.

Sənətkarın özü-özünü tərifləməsinə yaxşı baxmıram. Kimin əsərinin uzunömürlü, yaxud qısaömürlü olacağını zaman göstərəcək. Necə deyərlər, yaşayarıq, görərik.

Mən daha çox şahidi olduğum və ağrılarını yaşadığım anları tabloya köçürürəm. Buna görə də əsərlərimin real həyat səhnələrini əks etdirdiyi gücündə olduğunu düşünürəm.

Dünən düşmənlə əsgər, zabit kimi, bu gün rəssam kimi döyüşürəm. Bir vaxtlar silahla dediklərimi indi fırça ilə təkrar edirəm. Deməli, bu gün fırça mənim üçün bir silahdır. Ümumi götürəndə ikisi də çətindir, ikisi də mürəkkəbdir. Döyüşdə fiziki cəhətdən çox güclü və yüksək hazırlıqlı olmalısan, rəssamlıqda isə mənəvi dünyanın zənginliyindən qidalanmalısan, idrakının ənginliklərində dolaşmalısan. Çəkdiyim əsərlərlə gənclərdə torpaqlarımızı zəbt etmiş erməni qəsbkarlarına nifrət oyatmaq istəyirəm. Qoy böyüməkdə olan nəsillər dostumuzla düşmənimizi yaxşı tanısınlar.

Söz də rəsm əsərləri kimi qüvvətli və qüdrətlidir, yenilməz və məğlubedilməzdir. Zabit və əsgərlərimizə əzmkarlıq və xidmətlərində uğurlar arzulayıram. Onlar xalqımızı Qələbə müjdəsi ilə sevindirəcəklər.

**İntiqam AĞAYEV**

# Xəbərlər:
## hadisələr, faktlar

### Brüsseldə Türkiyə və ABŞ müdafiə nazirləri arasında görüş keçirilib



Brüsseldə Türkiyənin Milli Müdafiə naziri Nurəddin Canikli və ABŞ-ın Müdafiə naziri Ceyms Mattis arasında görüş keçirilib.

Görüşdə Suriya ərazisində həyata keçirilən "Zeytun budağı" antiterror əməliyyatı, ABŞ-ın Türkiyəyə qarşı olan terror təşkilatlarına yardım etməsi səbəbindən iki ölkə arasında yaranmış gərginliyə dair məsələlər və s. ətrafında müzakirələr aparılıb.

Qeyd edək ki, son günlər Türkiyə rəsmiləri fasiləsiz olaraq bu ölkənin sərhəd qonşuluğunda PKK-PYD-YPG-İŞİD terror qruplaşmalarına hərtərəfli yardım göstərilməsini əsas tutaraq ABŞ tərəfini kəskin ittiham edirlər.

### "Zeytun budağı" əməliyyatında zərərsizləşdirilən terrorçuların sayı 1551-ə çatıb



Türkiyə Silahlı Qüvvələrinin PKK, KCK, PYD-YPG və İŞİD terror qruplaşmalarının üzvlərinə qarşı Suriyanın Afrin bölgəsində apardığı əməliyyat nəticəsində öldürülən terrorçuların sayı 1551-ə çatıb.

Bu barədə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahı açıqlama yayıb.

Türkiyə Silahlı Qüvvələrinin yanvarın 20-dən başlatdığı "Zeytun budağı" əməliyyatının məqsədi qardaş ölkə üçün təhdid yaradan PKK, KCK, PYD-YPG və İŞİD terror qruplaşmalarını bölgədən uzaqlaşdırmaq, sərhəd xəttinin və həmin ərazilərdə yaşayan əhalinin təhlükəsizliyini təmin etməkdir.

### İsrail qondarma "erməni soyqırımı"nı tanımaqdan imtina edib



İsrail Knesseti (Parlament) qondarma "erməni soyqırımı" ilə bağlı qanun layihəsini qəbul etməyib.

"Jerusalem post" nəşrinin yaydığı məlumata görə, Knesset "Eş Atid" partiyasının sədri Yair Lapidin dəstəklədiyi qondarma "erməni soyqırımı"nı tanımaq barədə qanun layihəsini ilkin səsvermədə rədd edib.

### Mərakeşdə İŞİD terror təşkilatı ilə əlaqəli şəxslər həbs edilib



Mərakeşdə İŞİD terror təşkilatının üç təhlükəli tərəfdarı həbs edilib.

Terrorçular ölkənin Mərakeş, Layun və Sale şəhərlərində fəaliyyət göstəriblər.

Yayılan məlumatda bildirilir ki, 24-30 yaşlı gənclər olan bu şəxslər terror təşkilatının rəhbərliyi ilə əlaqəyə giriblər, bir sıra qətllərin planlaşdırılmasında, partlayıcı qurğuların hazırlanmasında iştirak ediblər. Onların Mərakeşin cənubunda fəaliyyət göstərən separatçı "Polisario" təşkilatı ilə də əlaqələri araşdırılır.

### Misir ordusu əməliyyat keçirib: 15 terrorçu məhv edilib, 153 nəfər saxlanılıb



Misir ordusunun Sinay yarımadasının şimalında və mərkəzi hissəsində keçirdiyi növbəti antiterror əməliyyatı nəticəsində 15 terrorçu məhv edilib, terror aktları törətməkdə və ekstremistlərə yardım etməkdə şübhəli bilinən 153 nəfər saxlanılıb. Saxlanılanlar arasında xarici vətəndaşlar da var.

Misir Silahlı Qüvvələri bununla bağlı bəyanat yayıb. Bildirilib ki, əməliyyat zamanı terrorçuların nəqliyyat vasitələri məhv edilib, onlarla partlayıcı zərərsizləşdirilib. Həmçinin silah-sursat bazaları, partlayıcı maddələrin hazırlanması üçün gizli laboratoriyalar və terrorçuların yeraltı sığınacaqları məhv edilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Ombudsman aparatının əməkdaşları hərbi hospitallarda olub



*Ombudsman aparatının hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və Müdafiə Nazirliyinin nümayəndələri plana uyğun olaraq Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olublar.*

Müasir standartlara cavab verən tibbi avadanlıqlarla təchiz olunan şöbə və bölmələrdəki vəziyyətlə tanış olan nümayəndələr personalın gündəlik iş fəaliyyəti ilə də bağlı məlumatlandırılıb. Tibbi heyətlə ümumi söhbətindən və gördüklərindən məmnunluğunu ifadə edən F.Həsənov buradakı vəziyyətdən də tam razı qaldığını vurğulayıb.

* * *

Azərbaycan Respublikası Müdafiə nazirinin və Azərbaycan Respublikası İnsan Hüquqları üzrə müvəkkilinin birgə tədbirlər planına əsasən, Ombudsman aparatının nümayəndələri Gəncə şəhərindəki hospitalda olublar.

Ombudsman aparatı hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və sektorun böyük məsləhətçisi Murad Babayev qərargahda zabitlərlə görüş keçiriblər. Sektor müdiri ölkədə həyata keçirilən hüquqi demokratik islahatlardan və qanunçuluğun möhkəmləndirilməsi, insan hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərdən danışaraq bildirib ki, ölkə Konstitusiyasında əsas yer tutan insan hüquq və azadlıqlarının təminatı həyata keçirilmiş, hərbi qulluqçuların hüquqlarının müdafiəsi istiqamətində hüquqi baza yaradılmışdır. Bu istiqamətdə məqsədyönlü tədbirlər uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük diqqət və qayğısı sayəsində hərbi qulluqçulara Vətənə, xalqa şərəfli xidmət üçün hərtərəfli şərait yaradılmışdır. Hərbi tibb sahəsi son illər böyük quruculuq yolu keçmişdir. Ən müasir tələblərə cavab verən sağlamlıq mərkəzləri yaradılmış, əyani vasitələrlə təmin edilmişdir. Ölkəmizdə hərbi qulluqçuların sağlamlığına diqqət yüksək səviyyədə təşkil olunub. Sonra aparat əməkdaşları hərbi qulluqçuları maraqlandıran sualları cavablandırıblar.



Aparat əməkdaşları hospitalın cərrahiyyə, terapiya, travmatologiya, nevrologiya, poliklinika şöbələrində hərbi qulluqçuların sağlamlıqları üçün yaradılan şəraitlə yaxından tanış olublar, müalicə alan əsgər və zabitlərin sağlamlıq durumları və tibbi xidmətlə maraqlanıblar. Aparat əməkdaşları göstərilən tibbi xidmətin səviyyəsindən və müalicə işinin səmərəli təşkilindən razılıqlarını bildiriblər.

**"Azərbaycan Ordusu", fotolar gizir Elmar ZEYNALOVUNDUR**

## Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş Ağdərə ərazisində yerləşdirilən düşmən ordusunun bölmələrindən birində yenə də yerlibazlıq üstündə əsgərlər arasında insident baş verib. Yerevandan olan erməni əsgərlə, Qarabağdan hərbi xidmətə çağırılan hərbçi arasında başlayan mübahisə sonda davaya çevrilib.

Bir-birini nalayiq söyüşlərlə təhqir etdikdən sonra, erməni əsgərlər əlbəyaxa olublar. Nəticədə hər iki hərbçi, Qasparyan və Aleksandr Sarqsyan müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Komandanlıq hadisəni örtbasdır edərək hüquq mühafizə orqanlarından gizlədib.

* * *

Bu günlərdə Ermənistan ordusunda daha bir biabırçı qalmaqal baş verib. Erməni əsgərlər tərəfindən cinsi təcavüzə məruz qalan Nona Aqasyan adlı erməni qadın özünü öldürməyə cəhd edib.

Hadisə işğal olunmuş Madagiz yaşayış məntəqəsində yerləşən düşmən ordusunun bölmələrindən birində baş verib. Hərbi qulluqçular tərəfindən zorlanan N.Aqasyan 20 ədəd həb içərək intihar etmək istəyib. Ağdərədə yerləşən hərbi hospitala çatdırılan qadının həyatını xilas etmək mümkün olsa da, vəziyyəti ağırdır.

Faktla bağlı zorlama və özünü öldürmə həddinə çatdırma maddələri ilə cinayət işi açılıb. İctimaiyyətdən gizlətmək məqsədilə hadisə barədə rəsmi məlumat verilmir.

Hazırda araşdırma aparılır.

**Hazırladı: İsa ELDAROĞLU**

*Hərbi texnikalar, silahlar*

## Dünyanin əfsanəvi aviasiyası - V-29 bombardmançısı

Hər bir ölkənin, hər bir millətin hərbi gücünü tərənnüm edən bir simvolu vardır. Rusiya üçün əsas simvollardan biri İkinci Dünya müharibəsinin əfsanəvi T-34 tankı, Yaponiya üçün A6M "Zero" qırıcısıdır ki, Sakit okeanda döyüş əməliyyatları zamanı müttəfiqlərinə qarşı dəhşətli hücum edib.

Almanların isə əsas silahı qırıcı "Lyuftvaffe" Messerşmidt 109 və ağır döyüş tankı PzKfw-VI "Tiqr"-dır. Amerikanın isə ağır aviadaşıyıcılarla birlikdə simvolu strateji V-29 bombardmançısıdır, onları "uçan super qalalar" adlandırırlar. Bu ağır təyyarələrə görə Amerika tarixdə ilk dəfə strateji silahlanma vasitəsini əldə edib və bu silahlanma vasitələri uzun məsafələrə qədər ölümgətirici yükləri daşımağa qadirdir.




Hava gəmisinin böyük uzunluğa malik olması onun müxtəlif kalibrli tam aviasiya bombalarını daşımağa imkan verir. Təyyarə adi halda 4,5 ton müxtəlif növ aviasiya bombalarını qəbul edə bilir. "Super qala"ların əsas bomba yüklənmələri mərmi, fuqas və yandırıcı bombalarla təqdim olunurdu. Bundan başqa təyyarə hədəfə qədər dörd ədəd 1,8 ton çəkidə beton deşən döyüş sursatlarını çatdırmağa qadirdir. Bütün müharibə dövrü ərzində 3000 ədəd belə təyyarə hazırlanıb. İndiyə qədər də bu təyyarə hərbi hava qüvvələrinin tarixində kütləvi strateji bombardmançı kimi qalmaqdadır.

**Hazırladı: Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

## "Sanki regionda Ermənistan adlı dövlət yoxdur"

Sanki regionda Ermənistan adlı dövlət yoxdur. Ermənistan Qafqazda de-yure mövcuddur. Lakin regionda həyata keçirilən heç bir qlobal xarakterli beynəlxalq iqtisadi layihədə iştirak etmir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Ermənistan Milli Konqres partiyasının sədr müavini Aram Manukiyan "Vestnik Kavkaza" analitik informasiya saytına deyib. Onun sözlərinə görə, Ermənistan iqtisadiyyatı dalana dirənib və bu səbəbdən də heç kim ölkəyə investisiya yatırmaq istəmir.

Partiya funksioneri qeyd edib ki, əvvəllər Ermənistana 3-4 milyard dollar investisiya yatırılırdı. Ötən il isə yatırılan investisiyanın həcmi cəmi 12 milyon dollar həcmində olub. Vəziyyəti daha da çətinləşdirən ölkədə baş alıb gedən korrupsiyadır. Heç bir ağıllı investor korrupsiyalaşmış dövlətə pul qoymaz. A.Manukiyan diqqətə çatdırıb ki, beynəlxalq investorlar sabit ölkələrə üstünlük verirlər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkədəki sabitliyi pozub. Ermənistanın nə xarici, nə də ki, daxili siyasətində sabitlik yoxdur.

## "Ermənistandakı iqtisadi tənəzzül sosial partlayışa səbəb olacaq"

Ermənistandakı seçkilər faktiki olaraq "Qarabağ kartı"na köklənib. Separatçılara verdiyi müstəqillik sözündən dönə bilməyən və ya fiziki məhvə gətirib çıxara biləcək hadisələrdən qorxan prezident Serj Sarkisyan və onun komandası öz vətəndaşlarını düşünmür, statuskvonu saxlamaqla hakimiyyətini qoruyur. Təbii ki, bu da cəmiyyətdə birmənalı qarşılanmır və seçkilərə mənfi təsir göstərəcək.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Arzu Nağıyev deyib. O bildirib ki, Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində konkret addımlar atmaması ölkəni faktiki olaraq iqtisadi tənəzzüllə üz-üzə qoyur. Bu vəziyyət isə erməni ictimaiyyətində sosial və siyasi narazılıq yaradır. Azərbaycan isə regionda sabitliyin qorunması üçün ikili və üçlü formatlara imza atıb.

Siyasi ekspert qeyd edib ki, Ermənistan regionda həyata keçirilən layihələrdən kənarda qalır. Bu ölkə regionda təhlükəsizliyi pozan güc kimi xarakterizə olunur. Yerevan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həllinə razı olmalıdır. Əks halda, ölkədəki iqtisadi gərginlik erməni əhalisini səfalət məngənəsində sıxacaq.

Arzu Nağıyev bildirib ki, bu gün Azərbaycan beynəlxalq miqyaslı böyük iqtisadi layihələrə müəllifilk edir və buna görə də super güclərlə eyni müstəvini bölüşür. Buna misal daraq, Bakı-Tbilisi-Qars dəmir yolunu, TAP, TANAP layihələrini, Şimal-Cənub nəqliyyat dəhlizini və digər layihələri qeyd etmək olar. Təkcə "Əsrin müqaviləsi"nin müddətinin uzadılması Azərbaycanın dünyanın aparıcı dövlətləri ilə bir sırada durmasından xəbər verir. Bu layihələrdə Ermənistandan başqa bütün region dövlətləri iştirak edir. Bu ölkənin layihələrdən kənarda qalması Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti aparması ilə bağlıdır. Sosial-iqtisadi vəziyyətin gərginliyi də iğtişaşlara yol açır. Seçkilərin müddəti yaxınlaşdıqca bu gərginlik artacaq. Ermənistan başa düşməlidir ki, iqtisadi çətinliklər, vətəndaşların sosial rifahının durmadan aşağı düşməsi sosial partlayışa gətirib çıxaracaq.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 55
Nüsxə 3500